# Dünyanın məşhur müsəlman alimləri: Astronom alim Uluğbəy (2)

Əziz Mustafa

Bu məğlubiyyət saray daxilində Uluğbəyin əleyhinə olan qüvvələrin daha da sıx birləşməsinə və ona qarşı yeni bir cəbhə açmasına səbəb oldu. Bu böyük elm fədaisinin düşmənləri Uluqbəyin böyük oğlu Abdul Lətifi öz tərəflərinə çəkə və onu atası əleyhinə qaldıra bildilər. Saray əyanlarını ən çox Uluğbəyin elmlə, xüsusi ilə ulduzların öyrənilməsi ilə məşğul olması və bu müstəvidə də onun guya islam dininə qarşı çıxması narahat edirdi. Abdul Lətifi də atasına qarşı onun guya islam dininin əleyhinə olması adı altında qaldırmışdılar. İslam dinini qorumaq qərarına gələn Abdul Lətif atasına qarşı üsyan qaldırmaq və onu taxt-tacdan salmaq qərarına gəlmişdi. Lakin o dövrdə hələ babası Şahrux Heratda hakimiyyətdə idi və o Uluqbəyi müdafiə edəcəyi halda Abdul Lətif məğlub olacaqdı. Ona görə də bir müddət üsyan planını təxirə salmalı oldu. 1447-ci ildə Şahrux vəfat etdi və bundan sonra Heratda da onun varisləri arasında hakimiyyət davası başladı. Bundan istifadə edən Abdul Lətif 1449-cu ilin payıznda Uluğbəyə qarşı üsyan qaldırdı. İlk döyüşdəcə Abdul Lətif atasının ordusunu darmadağın etdi. Onun qısa müddətdə Səmərqəndə daxil olacağı və oranı ələ keçirəcəyi gözlənilirdi. Bunu görən Uluqbəyin ətrafındakılar ona Mavarünnəhri tərk edərək Herata və ya Hindistana getməyi təklif etdilər. Ancaq Uluğbəy oğlunun ona əl qaldıra, ata qatili ola biləcəyinə inanmırdı. Çünki o, olduqca insanpərvər, şair təbiətli həssas və kövrək şəxsiyyət idi, övladlarını çox sevirdi və onlardan özünə qarşı pislik gələ biləcəyini ağlına belə gətirmək istəmirdi. Ona görə də ölkəni tərk etmək barədə ətrafındakıların təklifini qəbul etməyərək könüllü şəkildə oğluna təslim oldu. O rəsmi şəkildə taxt- tacdan əl çəkdiyini və bundan sonra da ömrünn qalan hissəsini rəsədxanada ulduzların öyrənilməsinə həsr edəcəyini bəyan etdi. Əvvəlcə Abdul Lətif atasının istəyini qəbul etdi və onu rahat buraxmaq qərarına gəldi.



## Ata qatili

Saray əyanları Uluğbəyi sakit buraxmaq və onun rəsədxanada elmlə məşğul olmasına da imkan verməmək niyyətində idilər. Onlar Abdul Lətifə atasından gec-tez ona və guya islam dininə zərər gələcəyi barədə xəbərdarlıq etdilər. Sarayın ruhani liderləri isə öz aralarında Uluğbəyin ölümünə fitva vermişdilər. Abdul Lətif bundan xəbərsiz idi. Ancaq o artıq atasının sag qalmasını arzulamırdı. Eyni zamanda öz əlini də atasının qanına batırmaq və tarixdə ata qatili kimi qalmaq istəmirdi. Bunu görən saray əyanları Abdul Lətifə atasını Həccə göndərməyi və yolda ələ alınmış muzdlu qatil vasitəsi ilə onu öldürtməyi təklif etdilər. Bu təklif Abdul Lətifin ağlına batdı. Ona görə də o atasına Həccə getməyi məsləhət gördü və hər şeydən xəbərsiz Uluğbəy oğlunun məsləhətini qəbul etdi. Bəzi məlumatlara görə Uluğbəy saray əyanlarının oğlu ilə birləşərək onu öldürtəcəyini öncədən bilmişdi, ancaq buna baxmayaraq heç bir tədbir görməmiş və özünü talenin hökmünə buraxmışdı. Bəzi məlumatlara görə isə atasının öldürülməsi ilə bağlı ruhanilərin çıxardığı fitvada Abdul Lətifin özü də iştirak etmişdi. Bu fitvaya saray ruhanilərindən yalnız Miskin soyadlı bir nəfər imza atmamışdı. Ölüm Uluğbəyi Həccə gedən yolda da yaxaladı və o müqəddəs yerə gedib çıxa bilmədi. Həccə yola düşəndən az sonra 1449-cu il oktyabr ayının 27-də türklərin tanınmış Sulduz soyundan olan Abbas adlı bir nəfər saray əyanlarının tapşırığı ilə Səmərqənddən bir az aralıda olan qışlaqda Uluğbəyi xaincəsinə öldürdü. O özünü təmizə çıxarmaq üçün vaxtı ilə guya atasının Uluğbəy tərəfindən öldürüldüyünü bildirdi və bununla da ondan qisas aldığını söylədi. Amma onun saray əyanlarının və Abdul Lətifin göstərişi ilə öldürüldüyü barədə əhali arasında söhbətlər dolaşırdı. Abdul Lətif atasının öldürülməsindən sonra təşvişə düşmüşdü. O tezliklə özünü də belə ölümün gözləyə biləcəyindən narahat idi. Ona görə də taxt- tac uğrunda özünə rəqib hesab etdiyi kiçik qardaşını da aradan götürtdü. Ancaq qardaşının ölümü gecəsi yuxuda özünün kəsilmiş başını sinidə gördü. Dərhal yuxudan ayıldı və saray alimlərindən və münəccimlərdən özünü hansı talenin gözlədiyini soruşdu. Onlar isə susurdular. Rəvayətə görə bundan əsəbiləşən Abdul Lətif Nizaminin əsərlərini oxumağa başlayır və oradan bu sətirləri tapır: "Atasının ölümüünə fitva verənlər hakimiyyətə gəlsələr də taxt- tacda altı aydan çox qala bilmirlər."

Həqiqətən də Uluğbəyin öldürülməsindən 6 ay sonra, 1450-ci il may ayının 8-də saray daxilində hakimiyyət uğrunda mübarizə aparan bir qrup sui- qəsdçi Abdul Lətifi öldürdülər. Onun yerinə hakimiyyətə keçən qohumu Uluğbəyi babası Teymurun dəfn olunduğu Qur Əmir qəbristanlığında böyük dini mərasimlə dəfn etdirdi.

## Gec də olsa haqq yerini tapır

Uluğbəyin öldürülməsindən sonra onun yaxın dostu astronom Əli Quşçu Abdul Lətifin ondan da intiqam alacağından ehtiyat edərək Ulduz cədvəlini, həmçinin dostunun yazdığı əsərlərin bəzilərini götürərək Həccə getmək adı altında Səmərqəndi tərk etdi. O İstanbula gəlir və burada dostunun və müəllimin ulduzlarla bağlı əsərlərini çap etdirməyə başlayır. Məhz onun səyləri nəticəsində Avropa Uluğbəylə yaxındna tanış olur və onun ulduzların öyrənilməsinə həsr edilən əsərlərini müxtəlif dillərə tərcümə edirlər. Bu əsərlər Uluğbəyə Avropada və dünyada böyük şöhrət gətirir. Əli Quşçu 1470-ci ildə İstanbulda Aya Sofiya mədrəsəsinə professor təyin edildi. Necə deyərlər, Uluğbəyin Türküstanda başlatdığı böyük elmi astronomik tədqiqatları o burada davam etdirməyə başladı.

Təssüflər olsun ki, Uluğbəyin özündən sonra qoyub getdiyi rəsədxana sonralar əhali tərəfindən dağıdıldı və onun qalıqlarını itirmək məqsədi ilə üstünə torpaq tökdülər. Yalnız xeyli sonralar 1908-ci ildə arxeoloq V.L. Vyatkin çox çətinliklə də olsa rəsədxananın yerini müəyyən edə bildi. Onun rəhbərliyi altında aparılan uzunmüddətli qazıntılar sonda öz bəhrəsini verdi rəsədxananın qalıqları aşkar edildi. SSRİ dövründə bu rəsədxana bərpa edildi və muzeyə çevrildi.

## Avropa ona heyran oldu

Uluğbəylə tanışlıq Avropa astronomları üçün yeni bir Amerika kəşfinə çevrildi. Onun əsərləri ilə tanışlıq Avropada astronomiya elminin inkişafına yeni bir təkan verdi. Uluğbəyin Avropada məşhur olmasını1648-ci ildə məşhur astronom Yan Hevel tərəfiindən nəşr edilən "Göy ulduzlarının kataloqu" adlı əsər də bir daha sübut edir. Adı çəkilən kataloqda dünyanın məşhur astronumlarının əksilri təsvir edilmiş qravura var. Həmiin məşhur astronomlar arasında Uluğbəyin də şəkli var.

Uluğbəyin astronom kimi əldə etdiyi böyük uğurlar Avropada o qədər böyük şöhrət gətirmişdi ki, 1830-cu ildə onun adının əbədiləşdirilməsi qərara alındı. Böyük alman astronomu və Uluğbəyi özünə ustad hesab edən İohann Henrix fon Medler ayda kəşf etdiyi krateri Uluğbəyin adı ilə adlandırdı. Uluqbəyin əsərləri dəfələrlə Avropada nəşr olunur və indinin özündə belə Avropa astronomları onu hörmətlə yad etməkdədirlər.

## Uluğbəy irsi yaşamaqda davam edir

Uluğbəy yalnız böyük astronom deyil, həm də mahir riyaziyyatçı idi. Bu günümüzdə belə dərslik kimi istifadə edilən triqonometrik əsərlər yazıb. Çünki astronomiya ilə triqonometriya əkiz qardaşlara bənzəyir. Məhz riyazi hesablamalar yolu ilə ulduzların hərəkət trayektoriyasını tədqiq etmək və öyrənmək mümkündür.

Uluğbəyin digər xidməti çoxsaylı kitabxanalar inşa etdirməsi ilə bağlı idi. O, bu kitabxanalara Çindən, Hindistandan, Ərəbistandan və digər yerlərdən çoxlu sayda elmi kitablar gətirtmiş, orada işləmək üçün ən məşhur alimləri ölkəsinə dəvət etmişdi. Bu da onun idarə etdiyi dövlətin nəinki Türküstanın, həm də dünyanın ən sivil inkişaf etmiş elm mərkəzlərindən birinə çevrilməsinə gətirib çıxarmışdı. Onun tərəfindən əsası qoyulan Səmərqənd məscidi o dövrdə məşhur elm mərkəzinə çevrilmişdi və Asiyanın hər yerindən oraya təhsil almağa gəlirdilər. Bu təhsil ocağına rəhbərliyi isə Uluğbəy Bursadan dəvət etdiyi məşhur şeyx və alim Bursalı Kadizadə Rumiyə tapşırmışdı.

Yeri gəlmişkən onu da deyək ki, Uluğbəyin sarayında çalışanlar içərisində Anadolunun müxtəlif yerlərindən, o cümlədən İstanbuldan çoxlu sayda elm adamları, memarlar, incəsənət nümayəndələri vardı. Yəni Uluğbəy Türküstanda yaşasa da onun bütün fəaliyyəti Anadolu və digər türk elləri ilə sıx bağlı idi. Təsadüfi deyil ki, onun ölümündən sonra sarayındakı elm adamları Anadoluya gələrək burada Osmanlının elmi inkişafına öz töhfələrini verdilər.

Uluğbəy bu gün türk-islam dünyasının, eləcə də bütün dünyanın ən məşhur astronomu, elm və dövlət xadimi kimi qalmaqda davam edir. Doğma vətəni Özbəkistanda onun adı əbədiləşdirilib və hər il doğum və ölüm günü xüsusi mərasimlə qeyd edilir.